# Həsən bəy Zərdabinin fəlsəfi görüşləri



**Müstəqil Ağayev**

*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu Azərbaycan Fəlsəfə tarixi şöbəsinin aparıcı fəlsəfə doktoru, dosent, Qabaqcıl Maarif Xadimi*

## IVYazı

***Ruhanilər elə iyrənc təbliğat aparırdılar ki, tələbələr gimnaziya paltarı geydiklərinə görə müsəlmanlar onları kafir adlandırır və təhqir edirdilər. Həmin paltarlara toxunan müsəlmanlar mütləq əllərini yumalı, salavat zikr etməli idilər. Guya salavat zikr etməklə əlləri yumaq əsil təmizliyə riayət etməyin nümunəsi idi.***

***H.B.Zərdabi "Keçmiş günlər" adlı məqaləsində şeyx ilə görüşünü belə təsvir edir: "...Mən kafir kostyumunda – gimnaziya paltarında idim... Mənim kostyumuma olan ap-aşkar nifrətdən qorxaraq, şeyx olan evə getməyə cürət etmədim....Şeyx gəldiyimi bilib özü dalımca adam göndərdi. ..Məni əlləri üzərinə qaldırıb bir-birinə ötürürdülər. Mən hiss edirdim ki, kimin əlindən keçirdimsə, o mənim Avropa kostyumuma toxunduğuna görə özünü murdarlanmış hesab edir, tüpürüb əllərini silirdi. Qapının lap ağzında daha sadiq müxlislər çəkmələrimi, furajkamı və pencəyimi çıxarmaq istədilər, mən qəzəbləınərək onların üstünə qışqırdım". ("Kaspi" qəzeti, 1884-cü il, 18-ci sayı).***

Həsən bəy Zərdabi istər "Əkinçi" qəzetinin səhifələrində, istərsə də başqa əsərlərində dini bayram və mərasimləri, köhnə adətləri, mövhumi fikirləri mütəmadi tənqid edir, bunları insanların şüurundan silməyəçalışırdı. O, 1884-cü ildə "Ucqarlardan xəbərlər" adlı məqaləsində qeyd edirdi ki, Zərdabda yaşayan İbrahim Xəlil oğlu bu il şiə müsəlmanları arasında şaxsey-vaxsey düzəltmək fikrinə düşmüşdü. İbrahim Xəlil oğlu bir mərsiyəxanla danışıb ki, camaatdan yığılacaq pullardan 5o manat ona verəcək, qalanını isə öz cibinə qoyacaq.

Sonralar İbrahim Xəlil oğlunun müştəriləri müəyyən səbəb üzündən azalmağa başlayır. Buna görə də o, həmin vaxt Zərdaba gəlmiş Şeyx Əli babanın köməyinə əl atır. Bir inək vəd etməklə onu şaxseyə gəlməyə razı salır. Zərdabi deyir: " Qəribə vəziyyətdir; bir-birinə düşmən olan iki müsəlman təriqətinin üzvləri bir yerdə ağlaşırdı. Əli babanın müridləridigər vaxtda şiələri parçalamağa hazır olduqları halda, indi onlarla bir yerdə hoppanır, çığırır və ağlayırlar. Şeyx Əli baba isə yumşaq taxt üstündə oturub şərbət içir, gözəllərdən zövq alırdı. Bir neçə saat davam edən belə zövq şəraitində o, bir inək də qazandı. İbrahim Xəlil isəŞeyxin sayəsində 100 manat topladı ki, bundan 50 manatı öz cibinə qoydu.". ("Kaspi" qəzeti, 1884-cü il, 18-ci sayı).

"Əkinçi" qəzetinin əməkdaşları tərəfindən şaxsey-vaxseyin, baş yarmağın, zəncir vurmağın tənqid edilməsi qaraguruhçular tərəfindən həcv və təhqir, söyüş və hədələrlə qarşılanırdı. Kapitan Sultanov adlı bir sayğısız "Əkinçi" qəzetinə göndərdiyi məqaləsində şaxsey-vaxsey zamanı adamların baş çapmasına, bədənlərinə zəncirlə xəsarət yetirmələrinə haqq qazandırır və bu kimi işlərin icrasına görə axirətdə imam tərəfindən mükafatlanacaqlarına onları inandırmağa çalışırdı. Həm də deyirdi ki, bu kimi hərəkətlər çox savab olmaqla bərabər, bir sıra xəstəliklərin də müalicəsinə kömək edir.

Kapitan Sultanovdan sonra Zərdabiyə hədə-qorxu, söyüş və təhqirlə dolu məktublar göndərilir, onu rahat buraxmırdılar. Həsən bəy mollaları, din xadimlərini, ruhaniləri , şeyxləri kəskin tənqid edir, dinə, şəriətə ləkə gətirən bəd əməllərini kütlələrə çatdırmaqla onların xalq içərisindəki nüfuzlarını aşağı salır, onlara qarşı xalq kütlələrinin nifrrət və qəzəbini artırırdı.

Zəhmətkeş, nadan və avam kütlələr içərisində Həsən bəy Zərdabinin nüfuzunun artması, ziyalılar arasında ona qarşı rəğbət və hörmətin çoxalması qaraguruhçuları çox rahatsız edir, bərk qızışdırır və özlərindən şıxarırdı. Bütün bunlar və digər hücumlar Zərdabini əsla qorxutmur və əksinə, bir az da cürətləndirirdi.

Din təbliğatçıları: ruhanilər, mollalar, dərvişlər, seyidlər özlərinin ikiüzlü sifətlərini, gizli məqsədlərini və mənafelərini müdafiə etmək üçün kütləni daim cəhalət və nadanlıqda saxlayırdılar. Buna görə də Həsən bəy Zərdabi ümumiyyətlə dinə xidmət edənləri kəskin tənqid atəşinə tutur, onları camaatın qanını soran parazitlər adlandırırdı.

O, məqalələrinin birində yazırdı: " Quba qəzasında bir seyid var ki, bir neçə yüz evi ki, hərə bir eşşək və bir xurcun ilə il uzunu gəzib xüms yığmaq ilə zindəganlıq edirvə əgər bir kəs deyə ki, xüms bu cür yığılsın və məhz belə adamlara verilsin və zikr olunan kəndin əhli yaxşı olardı ki, eşşək əvəzinə öküz saxlayıb, qeyri kəndlərin əhli kimi əkin və ziraət eləsin, tamam sryidlər ona lənət oxuyar" ( " Əkinçi" qəzeti, 1877-ci il, 5-ci sayı).

Həsən bəy əsas diqqətini dünyəvi elmlərə və onları tədris edən məktəblərə verirdi. O qeyd edirdi ki,elmi-əbdan və elmi-ədyan mübarizəsini açmaqda məqsədimiz elmi-əbdandan bixəbər olmağımızın səbəblərini vəonun əlacını göstərməkdir.( " Əkinçi" qəzeti, 1877-ci il, 5-ci sayı).

Həsən bəy öz qəzetində dini məktəbləri də ciddi tənqid edərək göstərir ki, bu məktəblər gəncləri əqli və mənəvi inkişaf cəhətdən kor və şikəst edir. "Bizə o məktəblər lazım deyil ki, orada şəriət adabları, yaxud boş sözləri bir-birinə qoşub ibarə ilə oxumaq dərsi keçilsin. Bizə elmi-əbdan məktəbxanası lazımdır ki, onları təzədən bina etmək gərək" ("Əkinçi" qəzeti, 1876-cı il, 18-ci sayı).

Din xadimlərinin ağlasığmaz və gerçəkliyə çevrilməsi heç zaman mümkün olmayan məntiqsiz uydurmalarına inanıb bu real dünyanı allaha ibadət etmək yolu ilə mövhumatı, yalançı axirət dünyası ilədəyişmək xülyasında olan fanatiklər haqqında Zərdabi Həsən bəy belə yazır: " Müsəlman taifəsi "axirət gözləyirəm"-deyə, beş gün dünya ömründən ötrü səy etmək nəyə lazım, amma bunu fikir eyləmir ki, dünyası olmayanın axirəti həm olmaz.Dünyada hamı bir-birilə zindəganlıq cənginə məşğuldur. Hər kəs bu cəngdə qalib oldu, ingilis taifəsi kimidünyanı, həmi axirəti kəsb edə bilər, amma məğlub olan nəinki axirətdən, hətta dünyadan da məhrum, yəni xəsərəd-dünya vəl axirə olur.Ey qardaşlar, vəqt keçməmiş səy edin ki, elm təhsil edib, zindəganlıq cəngində qalib gəlib dünya və axirət kəsb edə biləsiniz, yoxsa bir qərinədən sonraiş tamam olar". ("Əkinçi" qəzeti, 7 dekabr 1876-cı il, 23-cü sayı).

***Nadan müsəlmanların zehnini məşğul edən "təzavü qədər", "alın yazısı", məzara qoyulandan sonra nəkir-münkir adlı cəhənnəm mələklərinin sorğu-suala tutmaları və sair bu kimi gülünc uydurmaların da əleyhinə çıxan Zərdabi bu cəfəng fikirləri yayan ruhaniləri tənqid atəşinə tutaraq göstərir ki, heç bir qəzavü qədər yoxdur, insanın alnına əvvəlcədən heç bir şey yazılmır, insanın həyatı , xoşbəxt və bədbəxtliyi yaşadığı mühitlə, şəraitlə bağlıdır.***

***Həsən bəy Zərdabi iddia edir ki, allah tərəfindən heç bir şey yaradılmamış, mövcud olanlar da öz daxili qanunauyğunluğu əsasında baş verir. Lakin Həsən bəyin aşağıdakı fikrində bariz bir ziddiyyət özünü göstərir. O deyir:...əlbəttə, hər şey Allahdandır, amma Allah-Təala hər şeyi yaradıb, hərəsinə bir xasiyyət veribdir ki, o xasiyyəti elmi-hikmət yolu ilə axtarıb tapmaq əsrari-xudaya əl aparmaq deyil, bəlkə, bu yol ilə xudavəndi-aləmin qüdrəti daha artıq sübut olunur". ("Əkinçi" qəzeti,20 noyabr 1876-cı il, 22-ci sayı).***

Həsən bəy görürdüki, din xadimləri və hakim sinfin nümayəndələri dindən öz çirkin niyyət və mürtəce xarakter daşıyan məqsədlərini həyata keçirmək, asan gəlir əldə etmək, bir sözlə, xoşbəxt və dəbdəbəli həyat sürmək, müsəlmanları nəzarətdə saxlamaq üçün bir silah və vasitə kimi istifadə edirlər. Zərdabi dinin əsasına toxunmur, əksinə, bir sıra məqalələrində məktəblərdə dinin tədris edilməsinin lazım olduğunu göstərir və deyir ki, dini elmlərlə bərabər, dünyəvi elmlərin də öyrənilməsinə şərait yaratmaq lazımdır.

İnsanın allah tərəfindən yaradılması haqqında dini təsəvvürləri ifşa edən müəllif göstərir ki, insan heç bir allah tərəfindən yaradılmamışdır. O, müəyyən tarixi-təkamül prosesi keçirərək, üzvi materiyanın uzun bir inkişafının nəticəsində meydana gəlmişdir. Əmələ gəldiyi dövrlərdə yerin həddindən artıq isti olması üzündən orada nəinki insanın, hətta heç bir üzviyyətin yaşaması mümkün olmamışdır. Təkamül nəticəsində əvvəl müəyyən bəsit üzvi maddələr, sonra bitkilər və heyvanlar, lap axırda insan və onun beyni meydana gəlmişdir.

Həsən bəy Zərdabi insanın allah tərəfindən yarandığını rədd edir. Bu fikrini bu və ya digər məqalələrində çəkinmədən söyləyir. O, ölümlə əlaqədqr insanların beynində kök salmış yanlış düşüncə və mülahizələrə konkret misallar gətirməklə onların şüurunu oyatmağa çalışır. Ölümün allahla bağlı olmadığını, orqanizmin xarici mühitlə əlaqəsindən asılı olduğunu göstərir. Zərdabiyə görə, orqanizm yalnız xarici mühit şəraitində mövcud ola bilər. Canlı orqanizm yaşadığı mühitdən kənarda ölümə məhkumdur. Xarioci mühitlə əlaqənin kəsilməsi, hətta sadəcə olaraq zəifləməsi belə orqanizmdə maddələr mübadiləsini pozur. Orqanizmin daxilində həyati prosesləri ləngidir, beləliklə, tədricən onu ölümə doğru sürükləyir və,nəhayət, ölüm baş verir. Bunun allaha nə dəxli var?

H.B.Zərdabi göstərir ki, Yer kürəsinin ömrü 10-20 min il deyil, bəlkə də 10-20 milyon ildın də artıqdır. Yer Günəş sisteminə daxildir. Yerin yaranması Günəş sistemindən kənarda mövcud ola bilməz. " Bizim balaca Yerin milyon illər yaşı olan bütün həyatı kainatın inkişafında bir saniyədən artıq deyildir". (Həsən Məlikzadə Zərdabi, Torpaq, su və hava. Bakı, 1912-ci il, səh.1).

Dünyanın allah tərəfindən 6 gündə yaradılması barədə dini təbliğatın hələ də güclü olduğu bir zamanda , dünyanın heç bir allah tərəfindən yaradılmaması fikrini söyləmək olduqca qorxulu və cəsarətli fikir idi. Avam müsəlmanlar elə düşünürdülər ki,Göy allahın məskunlaşdığı məkandır. Allah ordaöz kürsüsündə oturub hər şeyi idarə edir.

Həsən bəy Zərdabi " Ayın fazalarının Yer üzərində üzvi həyata təsiri" adlı məqaləsində yazırdı: " Bir vaxtlar insanlar inanmışlar ki, səma cisimləri Yer üzərində həyatın gedişinə bilavasitə təsir edir. Göy cisimlərinin bu təsiri ilə xüsusilə məşğul olan ayrıca bir elm—astrologiya mövcud idi. Şahzadənisbət ailələrinbu və ya başqa üzvü dünyaya gələrkən bu elmin xadimləri çağırılardı ki, onlar da göy cisimlərininbir-birinə nisbətən düzülüşlərini müşahidə edərək yeni doğulmuş uşağın taleyi haqqında nəticə çıxarardılar. Buradan da belə bir məsəl meydana gəlmişdir: filankəs xoşbəxt ulduz altında doğulmuşdur. Lakin dəqiq elmlər astrologiyanı puça çıxartdı. Elm Yer üzərində həyati hadisələrin Günəşin yaydığı istidən və işıqdan asılılığını sübut edib, digər səma cisimlərinin təsirini kənar etdi və beləliklə, astrologiyanı dəfn edərək bütün yer üzərində yaşayanlar üçün ümumi qanun olduğunu müəyyən etdi. " ( "Kaspi" qəzeti, 1900-cü il, 137-ci sayı)

.Zərdabi göstərir ki, Günəş və Ayın təsirindən Yer üzərindəki şeylər hərəkətə gəlir, dəryaların suyu qalxır, bu təsir Yer üzündə olan şeylərdə olduğu kimi, Yer içində olan şeylərə, xüsusilə ərimiş daşlara da təsir edir. Bunun nəticəsində dəAy 14 günlük olan vaxtlarda zəlzələ, vulkan və sair hadisələr çox güclü olur".( Həsən bəy Məlikzadə Zərdabi. Toppaq, su və hava, Bakı, 1912, səh.19.)

Böyük mütəfəkkir yazır ki, Küreyi-ərz, Ay, Gün və qeyri ulduzların havada durub bir-birini ahənrüba kimi çəkib dövr etdiyi məlumdur. Ulduzlar Küreyi-ərzdən çox uzaq olduqlarından onların Küreyi-ərzə gücü də azdır. Amma Gün və AyKüreyi-ərzə yavuqdur və gücləri də artıqdır. Onların gücündən yer üzündə olan hava və su qismi olan şeylər qalxıb hündür, o vaxtlar ki, Ay və Gün yerin üzündə olan şeyləri hərə bir tərəfə çəkir, o şrylər az qalxır, amma ikisi də bir tərəfə çəkəndəartıq qalxır. Ay və gün o şeyləri Ay yeni olan zaman və Ay axşamlayanda, yəni ayın 14-də artıq çəkir.

Əlbəttə, Ayın və Günün belə Yer üzündə şeylərə təsiri olanda, Yerin qabığının altında olan belə şeylərə də təsiri olacaq, ona görə zikr olunan səbəbdən dolayı zəlzələ olanda gərək ayın ibtidasında və 14-də olan zəlzələ dəxi şiddətli olsun, məlumdur ki, bu zamanlar, həqiqət, belə zəlzələ olanda çox bərk olur. Zəlzələnin səbəbi Yerin içinin ərimiş şeylərdən dolu olmasıdır". ( "Həyat" qəzeti, 15-ci sayı,24 iyul 1905-ci il.)

***Din, mövhumat əsrlərlə insanları cəhalət və nadanlıqda saxlamaq, onları dünyaya açıq gözlə baxmağa, bu dünyanın nə olduğunu anlamağa , düzgün şəkildə düşünməyə, özünün kimliyini, həyata gəlməsinin mahiyyətini anlamağa, nəyə qadir olduğunu bilməyə, qarşılaşdıqları çətimliklərdən baş açmağa imkan verməmiş, onların şüurunu kütləşdirmiş, axirət dünyası, cənnət və cəhənnəm əzabı , ölümdən sonra qəbr evində nəkir və münkirin sual-sorğuya tutacaqları, əzrailin ölüm anında insanlaraişkəncə və əzablar verəcəyi kimi gülünc və uydurma sözlərlə qorxu altında saxlamağa çalışmışdır.***

***Həsən bəy Zərdabi məqalələrində cənnət, cəhənnəm, axirət dünyası, əzrail və sair dini-mövhumi anlayışlar haqqındakı köhnə təsəvvürləri kəskin tənqi1d atəşinə tutur və qətiyyətlə bildirirdi ki, nə axirət dünyası, nə cənnət, nə cəhənnəm, nə də əzrail, nəkir-münkir, mələkəl-mövt mövcuddur. İnsan öldükdən sonra torpağa qarışıb məhv olur. Axirət dünyası haqqında deyilən bu sözlərin hamısı uydurma və yalandır ( "Əkinçi" qəzeti, 1876-cı il, 23-cü sayı)***

***Dini mərasim və məscidlərdə ruhanilər , savadsız mollalar insanların şüuruna yeridirdilər ki, öz həyatlarından, talelərinin acılığından şikayətlənsələr, bu, allaha qarşı üsyan deməkdir, etirazdır. Allahın verdiyi aza da, şoxa da qane olmalısınız.***

Həsən bəy Zərdabi insanın allah tərəfindən yarandığını rədd edir.Bu fikrini bu və ya digər məqalələrində çəkinmədən söyləyir. O, ölümlə əlaqədar insanların şüurunda, beynində dərin kök salmış düşüncə və mülahizələrə konkret misallar gətirməklə onların şüurlarını oyatmağa çalışır. Ölümün allahla bağlı olmadığını, orqanizmin xarici mühitlə əlaqəsindən asılı olduğunu göstərir. Zərdabiyə görə, orqanizm yalnız xarici mühit şəraitində mövcud ola bilər.Canlı orqanizm yaşadığı mühitdən kənarda ölümə məhkumdur. Xarici mühitlə əlaqənin kəsilməsi, hətta, sadəcə olaraq zəifləməsi belə orqanizmdə maddələr mübadiləsini pozur. Orqanizmin daxilində həyati prosesləri ləngidir, beləliklə, tədricən onu ölümə doğru sürükləyir və ,nəhayət, ölüm baş verir. Bunun allaha nə dəxli var?

Zərdabi göstərir ki, Yer kürəsinin ömrü10-20 min il deyil, bəlkə də10-20 milyon ildən də artıqdır. Yer Günəş sisteminə daxildir.Yerin yaranması Günəş sistemindən kənarda mövcud ola bilməz. " Bizim balaca Yerin milyon illər yaşı olan bütün həyatıkainatın inkişafında bir saniyədən artıq deyuildir."(Həsən Məlikzadə Zərdabi. Torpaq, su və hava. Bakı, 1912-ci ilsəh.1)

Dünyanın allah tərəfindən 6 gündə yaradılması barədə dini təbliğatın hələ də güclü olduğu bir zamanda, dünyanın heç bir allah tərəfindən yaradlmaması fikrini söyləmək olduqca qorxulu və cəsarətli fikir idi. Avam müsəlmanlar elə düşünürdülər ki, Göy allahın məskunlaşdığı məkandır. Allah orada öz kürsüsündə oturub hər şeyi idarə edir.

Həsən bəy Zərdabi "Ayın fazalarının Yer üzərində üzvi həyata təsiri" adlı məqaləsində yazırdı:" Bir vaxtlar insanlar inanmışlar ki, səma cisimləri Yer üzərində həyatın gedişinə bilavasitə təsir edir. Göy cisimlərinin bu təsiri ilə xüsilə məşğul olanayrıca bir elm—astrologiya mövcud idi. Şahzadənisbət ailələrin bu və ya başqa üzvi dünyaya gələrkən bu elmin xadimləri çağırılardı ki, onlar da göy cisimlərinin bir-birinə nisbərən düzülüşlərini maşahidə edərək yeni doğulmuş uşağın taleyi haqqında nəticə çıxarardılar. Buradan da belə bir məsəl meydana gəlmişdir;filankəs xoşbəxt ulduz altında doğulmuşdur. Lakin dəqiq elmlərastrologiyanı puça çıxartdı. Elm Yer üzərində həyati hadisələrin Günəşin yaydığı istidən və işıqdan asılılığını sübut edib, digər səma cisimlərinintəsirini kənar etdi və beləliklə, astrologiyanıdəfn edərək bütün yer üzərində yaşayanlar üçün ümumi qanun olduğunu müəyyən etdi." ( "Kaspi" qəzeti, 1900-cü il, 137-ci sayı).

Zərdabi göstərir ki, Günəş və Ayın təsirindən şeylər hərəkətə gəlir. Dəryaların suyu qalxır, bu təsir Yer üzərində olan şeylərdə olduğu kimi, Yer içində olan şeylərə, xüsusilə ərimiş daşlara da təsir edir. Bunun nəticəsində də Ay 14 günlük olan vaxtlarda zəlzələ, vulkan və sair hadisələr çox güclü olur".(Həsən bəy Məlikzadə Zərdabi.Torpaq, su və hava. Bakı,1912.səh 19).

Din, mövhumat əsrlərlə insanları cəhalət və nadanlıqda saxlamaq, onları dünyaya açıq gözlə baxmağa, bu dünyanın nə olduğunu anlamağa, düzgün şəkildə düşünməyə, özünün kimliyini, həyata gəlməsinin mahiyyətini anlamağa, nəyə qadir olduğunu bilməyəqarşılaşdığı çətinliklərdən baş açmağa imkan verməmiş, onların şüurunu kütləşdirmiş, axirət dünyası, cənnət və cəhənnəm əzabı, ölümdən sonra qəbr evində nəkir və münkirin sual-sorğuya tutacaqları, əzrailin ölüm anında insanlara işkəncə və əzablar verəcəyi kimi gülünc və uydurma sözlərlə qorxu altında saxlamağa çalışmışdır.

Həsən bəy Zərdabi məqalələrində cənnət, cəhənnəm, axirət dünyası, əzrail və sair dini-mövhumi anlayışlar haqqındakı köhnə təsəvvürləri kəskin tənqid atəşinə tutur və qətiyyətlə bildirirdi ki, nə axirət dünyası, nə cənnət, nə cəhənnəm, nə də əzrail, nəkir-münkir, mələkəl- mövt mövcuddur. İnsan öldükdən sonra torpağa qarışıb məhv olur, bədən öldükdə ruh da məhv olur. Axirət dünyası haqqında deyilən bu sözlər hamısı uydurma və yalandır". ( "Əkinçi" qəzeti, 1876-cı il, 23-cü sayı).

Cəmiyyətdə baş verən hadisələri, varlı ilə yoxsul arasındakı münasibətləri hamı6 istər avam, istər ziyalı, istər xan, bəy,mülkədar olsun, istərsə də əli qabarlı, gecə-gündüz dinclik və yuxu bilmədən qan- tər tökərək çalışan və doyun qarın çörəyə həsrət qalan zəhmət adamları olsun—görür və bilirdilər. Lakin bu ictimai bərabərsizliyə, zülmə və istismara qarşı etiraz edən, narazılığını bildirən , demək olar ki, çox az idi. Zərdabi də bu vəziyyəti görür və başqalarından fərqli olaraq, düşündüyünü müqayisəli şəkildə qələmə alıb qəzet vasitəsilə ictimaiyyətə çatdırırdı: "Həqiqət, insanın çoxununzindəganı bəzi heyvanların zindəganından yaxşı deyil. Məsələn, məlumdur ki, bir heyvan bir ahunu şikar edib özü yeyir və əgər bir qeyr heyvan onun əlindən o ahunu almaq istəsə, onunla ölənəcən dava edir.

***Amma insan qan-tər töküb qazandığını avamlığı cəhətindən öz əli ilə özündən güclülərə verib onun daha artıq təvanə olmağına bais olur və yenə məlumdur ki, heyvan hara istəsə gedir, hər tərəfə xahiş etsə, baxır, hər nə istəsə eləyir, haçaq kefi istəsə uluyur..Amma insan nə ki özü istədiyini edə bilməyir, hətta , heyvan uluyan kimi öz xahişi ilə danışa da bilməyir. Pəs insanın maliki-dünyalıq ixtiyarı paymal olub, onun ağlı məhz təvanələr üçün işləyir. Əlbəttə, təvanə kasıb ilə belə rəftar eləyir ki, onun özü üçün yaxşı olsun". ("Əkinçi"qəzeti, 15-ci sayı, 21 iyul 1877-ci il).***

***Əlbəttə, Zərdabi kimi xalqın qayğısına qalan, onların cəhalətdən, nadanlıqdan, zülm və istismardan azad olub firəvan yaşaması, inkişaf edib başqa millətlər kimi öz hüquq və vəzifələrini başa düşməsi uğrunda mübarizəyə qoşulanlar barmaqla sayılan qədər az idi. Zərdabi millət qeydinə qalan belə mübarizlərin yetişməsi üçün ömrü boyu çalışmış, amma, arzusuna çata bilməmişdir.***

***Xalqının, millətinin nadanlıq, cəhalət və istibdadın yaratdığı qaranlıq zülmətdən çıxıb xoşbəxt gələcəyə, nurlu sabaha doğru gedən yolunda ürəyini məşələ çevirib əlində bayraq kimi tutan bu dahi və mübariz şəxsiyyət heç vaxt unudulmayacaq.***